*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 436-442*

https://doi.org/10.62837/2026.5.436

**KƏMALƏ FİKRƏT QIZI İSMAYILOVA**
**filologiya üzrə fəlsəfə doktoru**

# VİLLİAM TELL ƏFSANƏSININ FOLKLOR VƏ PSİXOANALİTİK KONTEKSTDƏ ŞƏRHİ: TARİXİ MÜBAHİSƏDƏN SİMVOLİK TƏHLİLƏ

## XÜLASƏ

Villiam Tell əfsanəsinin süjeti dünya folklorunun ən tanınmış süjetlərindən biridir. Əfsanənin tarixi etibarlılığı əsrlər boyunca elmi mübahisə mövzusu olmuşdur. Tellin mövcudluğuna dair heç bir sənədli dəlil tapılmamışdır. Müqayisəli folklor göstərir ki, alma atmaq motivi yalnız İsveçrəyə xas deyil. Eyni süjet Skandinaviya, İran, Danimarka və digər mədəniyyətlərdə də mövcuddur. XIX əsr folklorçuları əfsanəni günəş mifologiyası çərçivəsində izah etməyə çalışmışlar. Mif-ritual nəzəriyyəsi isə əfsanənin kökündə uşaq qurbanı ritualının dayandığını irəli sürmüşdür. Alan Dundes-in psixoanalitik oxunuşu şlyapa, yay-ox və almanın simvolik mənalarını birlikdə araşdırmışdır. Tell həm üsyankar oğul, həm də sevən ata obrazını eyni anda canlandırır. Beləliklə, əfsanə azadlıq uğrunda mübarizənin həm siyasi, həm də şəxsi bir hadisə olduğunu ifadə edir.

**Açar sözlər: Villiam Tell, folklor, müqayisəli folkloristika, Oedipal nəzəriyyə, simvolizm, İsveçrə milli kimliyi**

## РЕЗЮМЕ

Легенда о Вильгельме Телле является одним из наиболее известных сюжетов мирового фольклора. Историческая достоверность легенды на протяжении веков остаётся предметом академических дискуссий. Никаких документальных свидетельств существования Телля обнаружено не было. Сравнительная фольклористика показывает, что мотив стрельбы по яблоку не является исключительно швейцарским. Аналогичные сюжеты встречаются в скандинавской, иранской, датской и других культурах. Фольклористы XIX века пытались объяснить легенду в рамках солярной мифологии. Мифо-ритуальная теория предполагала, что в основе легенды лежит ритуал жертвоприношения ребёнка. Психоаналитическое прочтение Алана Дандеса исследует символическое значение шляпы, лука со стрелой и яблока в их совокупности. Телль одновременно воплощает образ бунтующего сына и любящего отца. Таким образом, легенда выражает идею о том, что борьба за свободу является одновременно политическим и личным событием.

**Ключевые слова:** *Вильгельм Телль, фольклор, сравнительная фольклористика, эдипова теория, символизм, швейцарская национальная идентичность*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 436-442*

**KAMALA İSMAYILOVA**

# "THE INTERPRETATION OF THE WILLIAM TELL LEGEND IN THE CONTEXT OF FOLKLORE AND PSYCHOANALYSIS: FROM HISTORICAL DEBATE TO SYMBOLIC ANALYSIS"

## ABSTRACT

The legend of William Tell is one of the most widely recognized narratives in world folklore. The historical authenticity of the legend has been a subject of academic debate for centuries. No documentary evidence of Tell's existence has ever been found. Comparative folklore studies demonstrate that the apple-shooting motif is not exclusively Swiss. Parallel narratives exist in Scandinavian, Iranian, Danish, and other cultural traditions. Nineteenth-century folklorists attempted to interpret the legend within the framework of solar mythology. The myth-ritual theory proposed that the legend is rooted in ancient child sacrifice rituals. Alan Dundes's psychoanalytic reading examines the symbolic meanings of the hat, bow-and-arrow, and apple in combination. Tell simultaneously embodies the image of a rebellious son and a loving father. Thus, the legend expresses the idea that the struggle for freedom is both a political and a deeply personal event.

**Key words:** *William Tell, folklore, comparative folkloristics, Oedipal theory, symbolism, Swiss national identity*

Villiam Tell əfsanəsi dünya folklorunun ən tanınmış süjetlərindən biridir. Britannica ensiklopediyasına görə, Tell əsasən Uri Kantonu ilə əlaqəli İsveçrə folklorunun əfsanəvi şəxsiyyətidir və onun hekayəsi ilk dəfə XV əsrin sonlarında ortaya çıxmışdır. Avstriya canişini Gesslerin uzun bir dirəyin başına qoyulmuş şlyapasına baş əyməyi rədd edən Tell, cəza olaraq öz oğlunun başındakı almanı oxla vurmalı olur. Hədəfə dəydikdən sonra isə əlindəki ikinci oxun Gessler üçün nəzərdə tutduğunu açıqlayır. Həbs olunaraq gəmiyə mindirilir, lakin qaçaraq Gessleri pusquda öldürür. Bu süjet görünüşdə sadə bir qəhrəmanlıq hekayəsi kimi qəbul edilsə də, əslində son dərəcə zəngin folklor, tarixi və psixoloji qatlar ehtiva edir.

İsveçrəlilər bu əfsanəni ölkənin milli quruluşunun təməli hesab edirlər.. Folklorşünas Regina Bendix Tellin İsveçrə üçün önəmini vurğulayaraq onu fərqli dillərdə danışan bütün isveçrəlilər tərəfindən tanınan yeganə ümumi simvol kimi səciyyələndirir (3. Səh 25). Tina Deinesin  tədqiqatı əfsanənin xüsusilə İnqilab Dövrü ərzində müqavimət və azadlığın güclü rəmzinə çevrildiyini, ədalətsizliyə qarşı mübarizənin simvolu olaraq İsveçrənin müstəqillik ruhunu ifadə etdiyini ortaya qoyur (7). Altdorf və İnterlaken şəhərlərinin hər il, müvafiq olaraq 1899 və 1912-dən bəri Tell tamaşaları hazırlaması bu əfsanənin cəmiyyət yaddaşındakı dərin köklərini göstərir. Dundesin qeyd etdiyi kimi, İsveçrə tamaşaçıları bu dramı hər il izləməkdən

yorulmur — bu, əfsanənin kollektiv psixologiyada nə qədər dərin yer tutduğunun ən bariz sübutudur. Əfsanənin həqiqət, yoxsa uydurma olması məsələsi əsrlər boyunca mübahisə mövzusu olmuşdur. Britannica redaktorları Tellin tarixi varlığının mübahisəli olduğunu, onun mövcudluğuna dair heç bir sənədli dəlilin tapılmadığını, bununla yanaşı nişançının sınağı hekayəsinin folklorda geniş yayılmış bir motiv olduğunu bildirirlər (5). Əfsanədə hadisələrin 1307-ci ildə baş verdiyi iddia edilsə də, Tell adına ilk sənədli istinad yalnız 1470-ci ilə aiddir — aralarında təxminən iki əsr fərq var. Lernerin araşdırmasına görə, Tell hekayəsinin ilk tam İsveçrə qeydi erkən humanist salnamələrdən biri olan White Book of Sarnen-də 1470-ci illərdə peyda olmuşdur (17. Səh 87). Əfsanənin klassik forması Gilg Tschudinin Chronicon Helveticum əsərində əks olunmuşdur; burada hadisələrin tarixi 1307-ci ilin noyabri kimi göstərilir. Voltaire isə əhvalatın tarixiliyini şübhə altına alaraq onu İsveçrə azadlığının beşiyini bəzəmək üçün düzəldilmiş bir nağıl olaraq dəyərləndirmişdir. Whittakerin vurğuladığı kimi, bütün sənədli mənbələr diqqətlə qiymətləndirilməlidir; bəzi müasir hesabatlar yaxından müşahidəyə deyil, folklora əsaslanır (27. Səh 9). McCrackan 1890-cı ildə elmi metodlar tətbiq edildikdə William Tell epizodunun ədəbi baxımdan dəyərli, lakin tarixi əhəmiyyəti olmayan bir folklor nümunəsinə çevrildiyini qeyd etmişdir (21).

Bu mübahisənin nə qədər həssas ola biləcəyi 1760-cı ildə İsveçrədə yaşanan bir hadisədən açıqca görünür: Uriel Freudenberger adlı bir müəllif Tell əfsanəsinin danimarkalı mənşəli olduğunu irəli sürdüyü üçün Uri kantonunda diri-diri yandırılma hökmü ilə üzləşdi (16. Səh 295). Yüz il sonra J.E. Kopp 1860cı ildə Rütli dağında kukla şəklində yandırmaqla cəzalandırıldı (8. Səh 43).(O, Tellin əfsanəvi ,uydurma bir şəxsiyyət olduğunu elmi cəhətdən sübut etmişdir.İsveçrəlilər isə bunu qəbul etmək istəmədilər və onu bu şəkildə simvolik olaraq cəzalandırdılar). Dundes bu hadisələrə diqqət çəkərək vurğulayır ki, müqayisəli folklor metodunun nəticələri İsveçrə millətçiləri arasında heç vaxt səmimi qarşılanmamış, əksinə kəskin müqavimətə məruz qalmışdır. Bu hadisələr göstərir ki, folklor araşdırması, xüsusilə milli duyğuları güclü olan cəmiyyətlərdə, ciddi siyasi risklər daşıya bilər. Emmenegger-in 2018-ci il tədqiqatına görə, bu dinamika müasir dövrə qədər davam etmiş, William Tell mifi İsveçrə siyasətini formalaşdırmağa davam etmişdir (11).

Əfsanə yalnız İsveçrəyə aid deyil.William Tell əfsanəsinin süjetinin başqa mədəniyyətlərdə də mövcud olduğunu göstərən ilk ciddi elmi araşdırma alman folklorçusu Jacob Grimmdən gəldi. Grimm 1807-ci ildəki məqaləsində Tell əfsanəsini şimaldan gələn paralel mətnlər kontekstində araşdırdı (14. Səh 11-12). 1835-ci ildə Deutsche Mythologie əsərində İslandiya dastanlarından Egi-in hekayəsini gətirdi: Nidunqun əmri ilə Egil öz oğlunun başındakı almanı atmağa məcbur edilmiş, əgər birinci ox uşağına dəysəydi qalan oxlarla ona qisas alacağını bildirmişdi (14. Səh 380).

Saxo Grammaticusun Gesta Danorum əsərindəki Toko hekayəsi də bu paralellər sırasındadır. Toko içki məclisində oğlunun başındakı ən kiçik almanı ilk atışda vuracağını iddia edir; kral onu ölüm hökmü altında bunu etməyə məcbur edir. Toko uğur qazandıqdan sonra çantasından niyə üç ox çıxardığı soruşulduqda isə əgər oğluna dəysəydi qalan iki oxu kral üçün istifadə edəcəyini etiraf edir (6. Səh 3:16). Bu detallar William Tell süjeti ilə heyrətləndirici dərəcədə uyğun gəlir. Dundes bu paralelliklərə əsaslanaraq göstərir ki, almanı oxla vurmaq motivinin coğrafi yayılması o qədər genişdir ki, bu süjetin yalnız İsveçrəyə xas bir hadisənin yaddaşı olduğunu iddia etmək artıq mümkün deyil. Lernerin müşahidəsinə görə, Tell obrazı uzun XVIII əsr boyunca siyasi azadlıq anlayışları ətrafında gedən mübahisələrin simvolu olaraq qalmışdır (17. Səh 90).

Əfsanənin ən qədim versiyasını XII əsrdə yaşamış İran şairi Fəridəddin Attar-ın Quşların Konfransı adlı alleqorik əsərindəki bir şeirdə görmək mümkündür — burada bir kral sevdiyi köləsinin başındakı almanı oxla vurur (1. Səh 46). Bu mətn William Tell versiyasından əsrlər əvvəl qələmə alınmışdır. Dundes bu İran mətninə xüsusi diqqət çəkir: hekayənin köləni sevən kral tərəfindən təkrar-təkrar həyata keçirilməsi süjetin köçəri xarakterini bir daha sübut edir. 1947-ci ildə Helmut de Boor hərtərəfli müqayisəli tədqiqat apararaq almaya ox atışı motivinin ilk dəfə Şimali Avropada, X-XI əsrlərdə ortaya çıxdığını müəyyən etdi. Andreas Heusler bu süjeti müasir folklorda "köçəri əfsanə" adlandırıb (15).

XIX əsr folklorçuları Villiam Tell əfsanəsinin mənasını günəş mifologiyası çərçivəsində axtardılar. Pfannenschmid 1865-ci ildə Tellin tarixi şəxsiyyət olmadığı tezisini irəli sürərək onu Hindus tanrısı İndra və İskandinaviya tanrısı Odin kimi günəş oxçuları ilə eyniləşdirdi; oxlar günəş şüaları, Gessler isə məğlub edilməli olan qış və fırtına simvolu kimi şərh edildi (22). Fiske 1902-ci ildə bu günəş mifologiyası şərhini tamamilə inandırıcı hesab edərək Villiam Tellin günəşlə eyniləşdirilməsinin aydın olduğunu qeyd etdi (12. Səh 323). Dundes bu şərhi nəzərdən keçirərək günəş mifologiyası məktəbinin özünəməxsus cəlbediciliyini qeyd edir, lakin onun izahedici gücünün məhdud olduğunu vurğulayır: günəş mifologiyası süjetin nə üçün məhz alma atışı motivinin ətrafında qurulduğunu, nə üçün atanın öz oğluna ox atdığını izah etmir. Mif-ritual nəzəriyyəsi əfsanənin kökündə uşaq qurbanı ritualının dayandığını irəli sürdü. Delcourt 1962-ci ildə Tell əfsanəsindəki uşağın məruz qaldığı təhlükənin sadə bir dramatik element, yoxsa bir kralın gənc oğlanın həyat enerjisini mənimsəmək üçün onu qurban etdiyi daha qədim bir hekayənin qalığı olub olmadığını sorğuladı (8. Səh 45). Lakin bu şərhin ciddi problemi var: Gessler öz oğlunu yox, düşməninin oğlunu qurban etməyə çalışır; üstəlik oxçunun məharəti sayəsində heç bir insan qurban edilmir. Dundes mif-ritual nəzəriyyəsinin bu zəif nöqtəsinə diqqəti xüsusi olaraq çəkir və göstərir ki, əfsanənin psixoanalitik oxunuşu bu boşluğu daha inandırıcı şəkildə doldurur. Alan Dundesin ən orijinal töhfəsi əfsanənin psixoanalitik təhlilinə verdiyi önəmdir. Dundesə görə, "Villiam Tell

əfsanəsinin ən azı üç fərqli simvolik elementi var: şlyapalar, yay-oxlar və almalar. Bu üç elementin hər birinin simvolik məzmununun başa düşülməsi əfsanənin tam şərhini vermək üçün vacibdir" (9. Səh 58). Bu istiqamətdə ilk addımı Otto Rank atmışdı: o, 1926-cı ildə Tell əfsanəsindəki tiran-qatil motivini Schillerin öz atasına duyduğu nifrətin ifadəsi kimi şərh etdi (23. Səh 118). Kielholz alma atışı süjetli nağıllarda oğula qarşı yönəlmiş aqressiv münasibətin açıq-aydın mövcudluğunu qeyd etdi (16. Səh 303). Peter von Matt 1974-cü ildə əfsanəni Freudun "Totem və Tabu" hipotezi kontekstində araşdıraraq süjeti İsveçrəli vətənpərvərlərin Avstriya tiranını devirmesi kimi oxudu (20. Səh 30-33).

Dundes üç əsas simvolik elementin mənalarını ayrı-ayrılıqda araşdırır. Şlyapa ilk növbədə hakimiyyətin və sosial statusun simvoludur. Dundesin göstərdiyi kimi, şlyapa tarix boyunca sosial ierarxiyanın ən görünən ifadəsi olmuşdur — kral tacından tutmuş müxtəlif rütbəli məmurlara məxsus baş geyimlərinə qədər; şlyapaya baş əymək tabeçiliyin, onu rədd etmək isə üsyanın simvolik hərəkətidir. Dirəyin başında dayanan Gesslerin şlyapası hakimiyyətin özünü simvollaşdırır; Tellin ona baş əyməməsi isə bu hakimiyyəti açıq şəkildə rədd etmək deməkdir. Alman xalq dilindəki "şlyapanı geymək" ifadəsinin evdə hökmranlıq etmək mənası daşıması da şlyapanın hakimiyyət simvolu kimi nə qədər dərin köklərə sahib olduğunu göstərir.

Yay-ox mövzusuna gəlincə, Dundes bu simvolun da sosial və mədəni baxımdan son dərəcə zəngin olduğunu ortaya qoyur. Eliadə möcüzəvi yay və mahir oxatan motivinin xüsusilə Şərqi Avropa və Asiya mifologiyaları ilə folklorunda geniş yayıldığını vurğulayır (10. Səh 466). Dundesin araşdırması göstərir ki, Şimali Avrasiya xalqlarında yeni doğulmuş oğlan uşağının beşiyinin yanına kiçik yay-ox qoyulması geniş yayılmış bir adətdir; bu ənənə yay-oxun erkəklik, kişi kimliyi və azadlıq simvolu kimi qəbul edildiyini sübut edir. Beləliklə, Tellin Gesslerin şlyapasına ox atması yalnız fiziki bir hərəkət deyil — o, öz kişiliyini və azadlığını simvolik olaraq bərpa edir. Almanın simvolik mənası isə ən çoxqatlıdır. Roheim 1940-cı ildə almanı ölümsüzlük meyvəsi kimi arxaik simvolikaya bağladı (24. Səh 193). Dundes almanın folklorda həm ana ilə, həm də günahla eyniləşdirilməsinin Tell süjetindəki alma üçün xüsusi məna kəsb etdiyini göstərir: uşağın başındakı alma yalnız hədəf deyil, eyni zamanda ata ilə oğul arasındakı dərin psixoloji bağın simvoludur. Çex mifologiyaşünası Václav Blažekin geniş müqayisəli tədqiqatı göstərir ki, alma motivi yalnız Tell süjetinə xas deyil — o, İran, Yunan, Kelt, German, Skandinav, Slavyan və Semit ənənələrinin hamısında fəal rol oynayan evrensel bir simvoldur. Blažekin əsas müddəasına görə, "ən universal motiv 'qızıl almalar' — xüsusilə 'üç qızıl alma' — motividir; alma ağacı adətən hökmdarın bağında bitir və onu oğlanlar qoruyur" (4. Səh 155). Bu evrensel strukturu daha da dərinləşdirən Xubbituddinova qeyd edir ki, alma bədii simvol və motiv kimi xalqların qədim mifoloji köklərə, dünyagörüşlərinə və inanclara söykənir, müxtəlif funksiyalar yerinə yetirir (28. Səh 82). Ossetic Nart dastanında alma həyat gücü verən sehrli meyvədir; Skandinav ənənəsində tanrıça İdunnun almaları tanrılara

əbədi cavanlıq bəxş edir; Yunan mifologiyasında isə Hesperidlər bağındakı qızıl almalar Heraklin əfsanəvi əməllərinin mərkəzini təşkil edir. Dundesin Tell əfsanəsindəki alma üçün irəli sürdüyü psixoanalitik şərh beləliklə yalnız fərdi bir müşahidə deyil — minillər boyu formalaşmış evrensel mifik yükün bu süjetdəki ifadəsidir. Villiam Tell əfsanəsi klassik Oedipal dilemmanı sıradışı bir şəkildə həll edir. Dundes-ə görə, "Villiam Tell həm oğul, həm də ata kimi qəhrəmandır: o, Gessler şəklindəki ata surətini məhv edir, eyni zamanda öz oğlunu xilas edərək xeyirxah ata olaraq qalır" (9. Səh 70). Tell, Gessler şəklindəki ata surətinə qarşı üsyan edir — bu, Oedipal sonun arzusuyla uyğun gəlir. Lakin eyni zamanda o, öz oğlunu xilas edərək xeyirxah ata olaraq qalır. Folklorda tipik olaraq atalar öz güclərini əlindən alacaqları qorxusu ilə oğullarını məhv etməyə çalışır; bu proyektiv inversiya oğullara müdafiə hüququ qazandırır və bununla da ata qətlini psixoloji baxımdan əsaslandırır. Tell əfsanəsinin orijinallığı isə bundadır: Tell öz oğlunu qurban etmir, əksinə xilas edir. Beləliklə, o, həm üsyankar oğul, həm də sevən ata obrazını eyni anda canlandırır — bu, Oedipal dramın folklorda nadir rast gəlinən harmonik həllidir. Lorenz 1923-cü ildə Telli siyasi mif olaraq şərh edərək siyasi azadlıq ilə oğul-ata münaqişəsinin bir-birinə zidd olmadığını vurğulayır (19. Səh 21-28). Dundesə görə, əfsanənin açıq mətni İsveçrə konfederasiyasının quruluşuna istinad etsə də, gizli məzmun fərdi kişilərin — oğulların ataları ilə münasibətindəki — psixoloji azadlığına aiddir. Dundes həmçinin qeyd edir ki, əfsanədə qadın obrazının demək olar ki, tamamilə yox olması da təsadüf deyil — bu, hekayənin kişilər arasındakı hakimiyyət münasibətləri üzərində qurulduğunu bir daha təsdiqləyir. Villiam Tell əfsanəsi üzərindəki tədqiqatlar göstərir ki, folklor mətnlərinin heç biri birtərəfli bir şərhlə bitmir. Əfsanə eyni anda tarixi mübahisənin obyekti, müqayisəli folkloristikanın köçəri motiv nümunəsi, günəş mifologiyasının ifadəsi, mif-ritual qatının izləri və psixoanalitik dərinin örtüyüdür. Britannica redaktorlarının vurğuladığı kimi, Schillerin 1804-cü il pyesi sayəsində əfsanə dünya miqyasında şöhrət qazanmışdır, lakin onun kökündəki folklor qatları çox daha dərin və genişdir (5). Deinesin 2024-cü ildəki tədqiqatına görə, Tell tarixi faktdan daha çox folklorun bir hissəsi hesab edilsə də, ədalətsizliyə qarşı mübarizənin güclü simvolu olaraq qalmaqda davam edir (7). Dundesin ən mühüm töhfəsi şlyapa, yay-ox və almanın simvolik mənalarını birlikdə araşdırması oldu — bu üç elementin hər biri müstəqil olaraq zəngin folklor ənənəsinin daşıyıcısıdır, lakin Tell əfsanəsinin gücü onların bir araya gəlməsindən doğur . Nəticə etibarilə, Villiam Tell əfsanəsi yalnız İsveçrənin milli qəhrəmanı haqqında deyil — o, insanlığın ən dərin psixoloji həqiqətlərindən birini, yəni azadlıq uğrunda mübarizənin həm siyasi, həm də şəxsi bir hadisə olduğunu ifadə edir.

## ƏDƏBİYYAT

1.Attar, Farid al-Din. 1984. The Conference of the Birds. Harmondsworth: Penguin.

2.Beck, Marcel. 1980. Wilhelm Tell: Sage oder Geschichte? Deutsches Archiv für Erforschung des Mittelalters 36:1–24.

3.Bendix, Regina. 1989. Backstage Domains: Playing "William Tell" in Two Swiss Communities. Bern: Peter Lang.

4.Blažek, Václav. 2024. "The Role of 'Apple' in the Indo-European Mythological Tradition and in Neighboring Traditions." ss. 155–193.

5.Britannica Editors. "William Tell." Encyclopædia Britannica. britannica.com. (İstifadə tarixi: 08.05.2026).

6.Child, Francis James. 1962. The English and Scottish Popular Ballads. 5 vols. New York: Cooper Square.

7.Deines, Tina. 2024. "William Tell (Folk Hero)." EBSCO Research Starters. ebsco.com.

8.Delcourt, Marie. 1962. History of Religions 2:33–51. jstor.org.stable.1062036

9.Dundes, Alan. 1997. From Game to War and Other Psychoanalytic Essays on Folklore. Lexington: University Press of Kentucky.

10.Eliade, Mircea. 1968. Notes on the Symbolism of the Arrow. In Religions in Antiquity, ed. Jacob Neusner, 463–475. Leiden: E.J. Brill.

11.Emmenegger, Marsel. 2018. "Revisiting the Assassination of 1291." ResearchGate, December 2018.

12.Fiske, John. 1902. Myths and Myth-Makers. Boston: Houghton, Mifflin.

13.Freud, Sigmund. 1959. A Connection between a Symbol and a Symptom. In Collected Papers, vol. 2. New York: Basic Books.

14.Grimm, Jacob. 1966. Teutonic Mythology. 4 vols. New York: Dover.

15.Heusler, Andreas. 1905. Der Meisterschütze. Basel: Verlag von Helbing und Lichtenhahn.

16.Kielholz, Arthur. 1931. Tell und Parricida. Psychoanalytische Bewegung 3:292–306.

17.Lerner, Marc H. 2007. William Tell's Atlantic Travels in the Revolutionary Era. Georgia: Consortium on Revolutionary Era.

18.Look and Learn History Picture Archive. 2013. lookandlearn.com. (İstifadə tarixi: 08.05.2026).

19.Lorenz, Emil. 1923. Der Politische Mythus. Leipzig: Internationaler Psychoanalytischer Verlag.

20.Matt, Peter von. 1974. Anwendung psychoanalytischer Erkenntnisse. Hamburg: Hoffmann und Campe Verlag.

21.McCrackan, W.D. 1890. "The William Tell Legend." The Atlantic, November 1890.

22.Pfannenschmid, Heino. 1865. Der mythische Gehalt der Tellsage. Germania 10:1–40.

23.Rank, Otto. 1926. Das Inzest-Motiv in Dichtung und Sage. Leipzig: Franz Deuticke. - İnternet archive

24.Roheim, Géza. 1940. The Garden of Eden. Psychoanalytic Review 27:1–26.

Voltaire. 1878. Essai sur les moeurs. Paris: Garnier Frères.

25.Whittaker, John C. 2016. "Arrowheads, Folklore, and Documentary Sources." Plains Anthropologist.

26.Xubbituddinova, N.A. 2020. "Образ «яблоко» в фольклорном сознании." Филология и человек. № 1. С. 79–83.

**Rəyçi: Qurbanov Tacir Şaban oğlu**
**filologiya uzrə fəksəfə doktoru**